*Harri Pinkerə (1928-2015)*
*optimizmə*

*Solomon Lopesə (2017-) və 22-ci yüzilliyə*
*ithaf olunur*

*Ağılı rəhbər tutanlar bəşəriyyət üçün istəmədiyi heç bir şeyi özü üçün istəməz.*

***– Barux Spinoza***

*Təbiət qanunlarına zidd olmayan hər şeyə müvafiq biliklə nail olmaq mümkündür.*

***– David Doyç***

## MÜNDƏRİCAT

Şəkillərinsiyahısı....................................................................................11
Ön söz............................................................................................................15

**I Hissə: Maarifçilik**

Fəsil 1. Anlamaq cəsarəti.........................................................................23
Fəsil 2. Entro, Evo, İnfo............................................................................32
Fəsil 3. Antimaarifçilik hərəkatları.......................................................48

**II Hissə: Tərəqqi**

Fəsil 4. Tərəqqifobiya...............................................................................59
Fəsil 5. Həyat..............................................................................................76
Fəsil 6. Sağlamlıq.......................................................................................86
Fəsil 7. Qida................................................................................................93
Fəsil 8. Bolluq...........................................................................................105
Fəsil 9. Bərabərsizlik...............................................................................124
Fəsil 10. Mühit..........................................................................................151
Fəsil 11. Sülh............................................................................................189
Fəsil 12. Təhlükəsizlik.............................................................................202
Fəsil 13. Terrorizm...................................................................................229
Fəsil 14. Demokratiya..............................................................................238
Fəsil 15. Hüquq bərabərliyi....................................................................254
Fəsil 16. Bilik.............................................................................................275

Fəsil 17. Həyat keyfiyyəti....................................................................290
Fəsil 18. Xoşbəxtlik...........................................................................306
Fəsil 19. Ekzistensial təhdidlər...........................................................336
Fəsil 20. Tərəqqinin gələcəyi...............................................................371

### III Hissə: Zəka, elm və humanizm

Fəsil 21. Zəka....................................................................................400
Fəsil 22. Elm......................................................................................437
Fəsil 23. Humanizm............................................................................464
Qeydlər............................................................................................ 512
Mənbələr...........................................................................................575

## ŞƏKİLLƏRİN SİYAHISI

Şək. 4-1. Yenilik xəbərlərinin emosional əhvalı, 1945–2010
Şək. 5-1. Gözlənən ömür uzunluğu, 1771–2015
Şək. 5-2. Uşaq ölümü, 1751–2013
Şək. 5-3. Ana ölümlərinin səviyyəsi, 1751–2013
Şək. 5-4. Gözlənilən ömür uzunluğu. Böyük Britaniya, 1701–2013
Şək. 6-1. Yoluxucu xəstəliklərdən uşaq ölümlərinin səviyyəsi, 2000–2013
Şək. 7-1. Gündəlik rasionun orta energetik dəyəri, 1700–2013
Şək. 7-2. Uşaqlarda boy artımının ləngiməsi, 1966–2014
Şək. 7-3. Doyunca yeməmək, 1970–2015
Şək. 7-4. Kütləvi aclıqdan ölüm nisbəti, 1860–2016
Şək. 8-1. Ümumi dünya məhsulu, 1–2015
Şək. 8-2. Əhalinin hər fərdinə düşən ÜDM, 1600–2015
Şək. 8-3. Dünya üzrə gəlir paylanması, 1800, 1975 və 2015
Şək. 8-4. İfrat kasıblıq (əhalinin faizi), 1820–2015
Şək. 8-5. İfrat kasıblıq (mütləq say), 1820–2015
Şək. 9-1. Beynəlxalq bərabərsizlik, 1820–2013
Şək. 9-2. Ümumdünya bərabərsizliyi, 1820–2011
Şək. 9-3. Böyük Britaniyada və ABŞ-də bərabərsizlik, 1688–2013
Şək. 9-4. İqtisadi əməkdaşlıq və inkişaf təşkilatına üzv ölkələrin sosial xərcləri, 1880–2016
Şək. 9-5. Gəlirlərin artımı, 1988–2008
Şək. 9-6. ABŞ-də yoxsulluq, 1980–2016
Şək. 10-1. Yer əhalisinin miqdarı və artımı, 1750–2015 və proqnoz 2100-cü ilə qədər
Şək. 10-2. Davamlılıq, 1955–2109
Şək. 10-3. Çirklənmə, enerji və böyümə, ABŞ, 1970–2015
Şək. 10-4. Meşələrin qırılması, 1700–2010
Şək. 10-5 Neftin dənizə axması, 1970–2016
Şək. 10-6. Mühafizə olunan təbiət əraziləri, 1900-2014

Şək 10-7. Karbon qazı buraxılmasının intensivliyi (hər dollar ÜDM düşən CO2 miqdarı), 1820–2014
Şək. 10-8. CO2 atılması, 1960–2015
Şək. 11-1. Böyük dövlətlərin müharibələri, 1500–2015
Şək. 11-2. Döyüşdə ölənlər, 1946–2016
Şək. 11-3. Genosidlər nəticəsində ölüm, 1956–2016
Şək. 12-1. Qətllər nəticəsində ölümlər, Qərbi Avropa, ABŞ və Meksika, 1300–2015
Şək. 12-2. Qətllər nəticəsində ölüm miqdarı, 1967–2015
Şək. 12-3. Yol-nəqliyyat hadisələrində ölüm, ABŞ, 1921–2015
Şək. 12-4. Piyadaların ölümü, ABŞ, 1927–2015
Şək. 12-5. Aviaqəzalarda ölüm, 1970–2015
Şək. 12-6. Yıxılma, yanğın, suda boğulma və zəhərlənmə nəticəsində ölümlər, 1903–2014
Şək. 12-7. İş yerində bədbəxt hadisə nəticəsində ölümlər, ABŞ, 1913–2015
Şək. 12-8. Təbii fəlakətlər nəticəsində ölümlər, 1900–2015
Şək. 12-9. İldırım vurması nəticəsində ölüm, ABŞ, 1900–2015
Şək. 13-1. Terror aktları nəticəsində ölümlər, 1970–2015
Şək. 14-1. Demokratiya və avtoritarizm, 1800–2015
Şək. 14-2. İnsan haqları, 1949v2014
Şək. 14-3. Edam cəzasının ləğvi, 1863–2016
Şək. 14-4. ABŞ-də edam cəzası, 1780–2016
Şək. 15-1. İrqçi, seksist və homofob baxışlar, ABŞ, 1987–2012
Şək. 15-2. İrqçi, seksist və homofob internet-sorğular, ABŞ, 2004–1017
Şək. 15-3. Nifrət zəminində cinayətlər, ABŞ, 1996–2015
Şək. 15-4. Zorlamalar və ev zorakılıqları, ABŞ, 1993–2014
Şək. 15-5. Homoseksuallığın dekriminallaşdırılması, 1791–2016
Şək. 15-6. Liberal dəyərlər, zamana və nəsillərə görə, inkişaf etmiş ölkələr, 1980–2005
Şək. 15-7. Liberal dəyərlərin zamandan asılılığı (ekstrapolyasiya), dünyanın mədəni zonaları, 1960–2006
Şək. 15-8. Uşaqlar qarşı zorakılıq, ABŞ, 1993–2012
Şək. 15-9. Uşaq əməyi, 1850–2012
Şək. 16-1. Savadlılıq, 1475–2010
Şək. 16-2. İbtidai təhsil, 1820–2010
Şək. 16-3. Ortalama təhsil müddəti, 1875–2010
Şək. 16-4. Qadınlar arasında savadlılıq, 1750–2014
Şək. 16-5. IQ yüksəlişi, 1909–2013
Şək. 16-6. Dünyada rifah, 1820–2007

Şək. 17-1 İş saatları, Qərbi Avropa və ABŞ, 1870–2000
Şək. 17-2. Pensiyaya çıxma, ABŞ, 1880–2010
Şək. 17-3. Rahatlıq, məişət texnikası və ev işi, ABŞ, 1900–2015
Şək. 17-4 İşığın qiyməti, İngiltərə, 1300–2006
Şək. 17-5. Ən lazımlı predmetlərə xərclər, ABŞ, 1929–2016
Şək. 17-6. Sərbəst vaxt, ABŞ, 1965–2015
Şək. 17-7. Aviareyslərin qiyməti, ABŞ, 1979–2015
Şək. 17-8. Beynəlxalq turizm, 1995–2015
Şək. 18-1. Həyatdan məmnunluq və gəlir, 2006
Şək. 18-2. Amerikalı şagirdlər arasında tənhalıq, 1978–2011
Şək. 18-3. Suisid. İngiltərə, İsveçrə və ABŞ, 1860–2014
Şək. 18-4. Xoşbəxtlik və əyləncəlilik, ABŞ, 1972–2016
Şək. 19-1. Nüvə silahı, 1945–2015.
Şək. 20-1. Populizmin göstəricilərlə dəstəklənməsi, 2016

## ÖN SÖZ

Üçüncü minilliyin ikinci dekadasının ikinci yarısı heç də tərəqqinin tarixi trayektoriyası və səbəbləri haqqında kitab nəşr etmək üçün əlverişli zaman kimi görünmür. Bu sətirləri yazdığım vaxtda, mənim ölkəmi indiki zamanın ən qaranlıq obrazını istəyən adamlar idarə edirlər: "ana və uşaqlar… dilənçilikdən yaxa qurtara bilmirlər; təhsil sistemi bizim gənc və gözəl tələbələrimizə lazımi biliklər vermir… cinayətkarlıq, bandalar, narkotiklər çox sayda can alır"[1]. Biz "açıq müharibə" vəziyyətindəyik, özü də davamlı "genişlənir və metastazlar verir". Bütün bu dəhşətin günahı "xristianlığın mənəvi və əxlaqi əsaslarını" aşındıran "qlobal hakimiyyət sisteminin" boynuna atılır[2].

Sonrakı səhifələrdə mən göstərəcəyəm ki, işlərin belə ümidsiz şəkildə dəyərləndirilməsi kökündən yanlışdıq. Qeyri-dəqiqlik söhbəti deyil, Yerin müstəvi nəzəriyyəsi kimi ümidsiz şəkildə yanlışdır və həqiqətə tamamilə ziddir. Lakin bu kitab – ABŞ-nin 45-ci prezidenti və onun müşavirləri haqqında deyildir. Mən bu kitab haqqında hələ Donald Tramp prezidentliyə namizədliyini irəli sürəcəyini elan etdikdən çox əvvəl düşünmüşdüm və ümid edirəm ki, mənim əsərim onun administrasiyasından daha çox yaşayacaqdır. Əslində, Trampın seçilməsinin təməl ideyaları həm sağ, həm də sol siyasi görüşlü adi insanların və intellektualların arasında populyardır… Bu dünyadakı qlobal proseslərin hansı istiqamətdə getməsindən doğan pessimizm, modern institutlara sinik münasibət və din xaricində heç bir şeydə ali məna görə bilməmək... Mən isə dünyaya faktlarla dəstəklənən və Maarifçilik ideallarından (zəka, elm, humanizm və tərəqqi) ruhlanan başqa bir baxışı təmsil edirəm. Mən Maarifçilik ideallarının əskimədiyini və bizə bu gün hər zamankından daha gərəkli olduğunu göstərəcəyimə ümid edirəm.

Sosioloq Robert Merton kommunalizmi (kollektivizm), ümumi iş ruhunu universalizm, təmənnasızlıq və mütəşəkkil skeptisizmlə bərabər birinci dərəcəli elmi məziyyət hesab edirdi[2]. Lap yaxşı, halal olsun o alimlərə ki, ümumi iş ruhu ilə, mənim suallarıma tez və əhatəli cavab verərək, öz topladıqları məlumatları mənimlə paylaşıblar.

# I HİSSƏ
# MAARİFÇİLİK

*XVIII əsrin ümumi sağlam düşüncəsi, insan əzablarının əyani faktlarını, insan təbiətinin aydın tələblərini anlamaq baxımından dünyaya mənəvi təmizləyici bir duş təsiri buraxmışdır.*

– Alfred Vaythed

Bir neçə onilliklər ərzində dil, təfəkkür, insan təbiəti mövzularında mühazirələr oxuduğum zaman mənə qəribə suallar verirdilər. Hansı dil daha yaxşıdır? Molyusklar və istridyələr düşünürmü? Nə zaman mən öz təfəkkürümü internetə yükləyə biləcəyəm? Piylənmə zorakılığın bir formasıdırmı?

Lakin ən heyrətamiz sual mənə, insan təfəkkürünü insan beyninin düzənli fəaliyyəti kimi alimlər tərəfindən ümumi qəbul edilmiş anlayışı izah etdiyim bir mühazirədən sonra verildi. Auditoriyada bir tələbə qız əlini qaldıraraq soruşdu:

– Mən niyə yaşamalıyam?

Onun sadəlövh səs tonundan aydın idi ki, özünə qəsd etmək kimi bir niyyəti yoxdur və ironiya da etmir, sadəcə gerçəkdən bilmək istəyir ki, müasir elmin ruhun ölməzliyi haqqında alışılmış dini təsəvvürləri çürütdüyü bir zamanda necə məna və məqsəd tapmaq olar. Mən ümumiyyətlə hesab edirəm ki, axmaq sual yoxdur və özümün də, digər dinləyicilərin də təəccübünə rəğmən, mən o qızın sualına layiqli bir cavab formalaşdıra bildim. Yaddaşım aldatmırsa, sonradan bir az sığallanmış kimi görünən o cavab belə idi:

"Bu sualı verərkən siz öz etiqadınız üçün rasional əsas axtarırsınız və deməli, siz təfəkkür prinsipinə uyğun olaraq, özünüz üçün vacib olanı tapıb doğrulamaq istəyirsiniz. Yaşamaq üçün isə ağıllı (məntiqli) səbəblər lap çoxdur!

Şüurlu bir varlıq olaraq siz firavan yaşamaq qabiliyyətinə sahibsiniz. Siz öz rasional düşüncənizi təhsil alaraq və mübahisələrdə iştirak edərək inkişaf etdirə bilərsiniz. Siz elmi üsullarla təbiət hadisələrinə izah axtara bilərsiniz və incəsənət, humanitar bilik vasitəsilə insan təbiətini anlamağa çalışa bilər-

siniz. Siz öz həzz alma və tətmin olma qabiliyyətinizi maksimum istifadə edə bilərsiniz, məhz bunun əsasında əcdadlarınız müvəffəqiyyətlə çoxalmışlar və siz özünüz də bu çoxalmanın məhsulusunuz. Siz özünüzü təbiət və incəsənət dünyasının gözəllik və zənginliklərini anlamağa həsr edə bilərsiniz. Siz həyatın milyard illər özünü təkrarlamasının bir nəticəsi olaraq, öz növbənizdə yeni nəsil yaratmaqla məşğul ola bilərsiniz. Siz başqaları ilə birlikdə sevinmək və kədərlənmək qabiliyyətinə maliksiniz: siz sevə, hörmət edə, yardım edə bilərsiniz, ailənizin digər üzvləri ilə, dostlarınız və həmkarlarınızla  qarşılıqlı xoş ünsiyyətdən həzz ala bilərsiniz.

Bütün bunların heç biri yalnızca sizə məxsus müstəsna qabiliyyət olmadığından, siz özünüz üçün istədiklərinizin başqalarında da olmasını təmin etmək məsuliyyəti daşıyırsınız. Siz həyatın, sağlamlığın, biliyin, azadlığın, zənginliyin, təhlükəsizliyin, gözəllik və sülhün naminə çalışaraq digər şüurlu varlıqların firavanlığını təmin edə bilərsiniz. Tarix göstərir ki, biz başqalarının dərdinə şərik olanda və qabiliyyətlərimizi insan həyatını yüngülləşdirməyə sərf edəndə, bu istiqamətdə tərəqqi görürük və siz bu tərəqqiyə təkan verə bilərsiniz”.

Həyatın mənası barədə fikir yürütmək koqnitiv elm professorunun tipik vəzifə borcuna daxil deyildir. Mən o tələbə qızın sualına öz dar ixtisas biliklərimə və ya şübhəli həyat təcrübəmə əsaslanaraq cavab verməyə cürət etməzdim. Amma bu halda mən bilirdim ki, yalnızca iki əsr bundan öncə irəli sürülmüş və indi hər zamankından daha aktual olan dəyər və inancları – məhz Maarifçilik ideallarını təkrar edirəm.

Maarifçiliyin prinsipi – rasional düşüncə və dərdi bölüşmə insanlığın çiçəklənməsinə aparan yoldur – sıradan, öz-özünə aydın və köhnəlmiş görünə bilər. Mən bu kitabı ona görə yazdım ki, bunun belə olmadığını anladım. İndi zəka, elm, humanizm və tərəqqi ideallarının hər zamankından daha çox qərarlı müdafiəyə ehtiyacı var. Biz indi Maarifçiliyin töhfələrini təbii qəbul edirik: səksən il yaşayacaq körpə, qida məhsulları ilə dolu bazar, bir əl hərəkəti ilə axan təmiz su, bir əl hərəkəti ilə yox olan zibil, təhlükəli infeksiyalara qarşı həblər, müharibəyə göndərilməyəcək oğullar və küçələrdə qorxusuz dolaşa biləcək qızlar, həbsə atılmadan və öldürülmədən hakimiyyəti tənqid edənlər, bütün dünyanın elm və mədəniyyəti köynəyimizin cibindədir. Bütün bunlar yaradılışdan bizə verilən üstünlüklər deyil, insanlığın  uğurudur. Bu kitabın bir çox oxucularının şəxsi xatirələrində və planetin talesiz bucaqlarında yaşayanların isə real həyatlarında hələ də müharibə, yoxsulluq, xəstəliklər,

cəhalət hökm sürür. Bilirik ki, ölkələr asanlıqla bu ibtidai vəziyyətə geri dönə bilər, ona görə də öz qorxu və riskimizlə Maarifçiliyin uğuruna göz yumuruq.

Mən o qızın sualına cavab verəndən sonra ötən illər ərzində həyat mənə tez-tez Maarifçilik ideallarını (onları humanizm, "açıq cəmiyyət", kosmopolitlik və ya klassik liberalizmin idealları da adlandırırlar) yenidən ifadə etmək lazım olduğunu xatırladırdı. Məsələ sadəcə onda deyil ki, mən hər gün poçtumda bənzəri suallar aşkar edirdim (Hörmətli professor Pinker, sizin elmi məqalə və kitablarınızdakı ideyaları rəhbər tutan, özünü atomlar yığınından ibarət, məhdud dərketmə qabiliyyətli, eqoistik genlərinin meydana gətirdiyi və zaman-məkan kontiniumunda mövcud olan adama siz nə məsləhət görərdiniz?), həm də ondadır ki, əgər biz insanlığın tərəqqisinin nə qədər böyük olduğunu unutsaq, bu bizə ekzistensial kədərdən daha betər simptomlar vəd edər. Bu isə insanlarda Maarifçilikdən ruhlanmış və tərəqqinin dayağı olan institutlara, məsələn, liberal demokratiya və ya  beynəlxalq əməkdaşlıq təşkilatlarına sinik inamsızlıq doğura bilər və onları atavistik alternativlərə baş vurmağa sövq edər.

Maarifçilik idealları insan təfəkkürünün məhsuludur, lakin onlar daim insan təbiətinin başqa komponentləri ilə (öz qəbiləsinə sadiqlik, avtoritetlərə hörmət, magik təfəkkür, bütün bədbəxtliklərdə cinayətkarları günahlandırmaq) mübarizə aparmağa məcburdurlar. XXI əsrin ikinci onilliyində öz cəmiyyətlərinə yalnız öz ölkəsini geri döndərərək onu "yenidən qüdrətli" edə bilən güclü bir liderin qarşı qoya biləcəyi dəhşətli antiutopik gələcək vəd edən siyasi hərəkatlar güclənməyə başladı. Bu hərəkatlara onların ən qatı əleyhdarlarının da paylaşdığı bir sıra ideyalar dəstək verir: guya müasir institutlar özlərini doğrultmur və həyatın hər aspekti getdikcə daha dərin böhrana girir. Hər iki tərəf belə bir dəhşətli inancda birləşirlər ki, bu institutları ləğv etsək, dünya daha yaxşı olacaqdır. Xeyli nadir olsa da, bəzi müsbət görüşlü insanlara da rast gəlinir, onlar dünya problemlərini tarixi tərəqqi fonunda qəbul edirlər və bu problemləri həll edərək, tərəqqini daha irəli aparmağa cəhd göstərirlər.

Əgər siz hələ də Maarifçiliyin humanistik ideallarına qərarlı müdafiə lazım olduğuna əmin deyilsinizsə, radikal islamist hərəkatlar tədqiqatçısı Şiraz Maherin sözlərinə diqqət yetirin: "Qərb öz dəyərlərindən utanır – daha klassik liberalizmin müdafiəsinə qalxmır. Biz bu dəyərlərdən əmin deyilik. Biz onlardan utanırıq". Maher Qərbin bu münasibətini "nə üçün savaşdığını dəqiq

bilən" İslam Dövləti ilə müqayisə edir və bu əminlik cəlbedicidir. Əlbəttə, o bunu gözəl bilir: çünki o əvvəllər "Hizb-ut-Tahrir" cihadist qruplaşmasının məhəlli rəhbəri olmuşdur.

İqtisadçı Fridrix fon Hayek 1960-cı illərdə, ən böyük sınaqlara davam gətirməsindən az sonra liberal ideallar haqqında yazırdı:

"Əski həqiqətlərin insanların ağlına təsirini saxlaya bilməsi üçün növbəti nəslin dil və anlayışlarından istifadə edərək onları yenidən formulə etmək lazımdır. Vaxtilə parlaq olan ifadələr tədricən sürtünür və konkret mənasını itirir. Onların arxasında saxlanan ideyalar hələ də əvvəlki kimi aktual qala bilər, amma sözlər əvvəlki inandırıcılığını itirirlər".

Bu kitab mənim XXI əsrin dil və anlayışlarından istifadə edərək Maarifçilik ideallarını yenidən formulə etmək cəhdimdir. Əvvəlcə mən müasir elmin nailiyyətləri işığında insan təbiətini anlamanın ümumi prinsiplərini qeyd edəcəyəm: biz kimik, haradan gəlmişik, hansı çətinliklərlə qarşılaşırıq və onların öhdəsindən necə gəlirik. Kitabın çox hissəsi XXI əsrə xas olan metodlarla – konkret faktların yardımı ilə – bu ideallların müdafiəsinə həsr olunmuşdur. Maarifçiliyin bir proyekt kimi öyrənilməsinə bu faktoloji yanaşma göstərir ki, onunla bağlı ümidlər boşuna deyilmiş. Maarifçilik özünü doğrultdu və bu, ola bilsin, bizim nadir xatırladığımız ən böyük tarixlərdən biridir… Bu triumf o dərəcədə tərif edilməmiş qalmışdır ki, onun təməlində duran zəka, elm və humanizm idealları da öz dəyərinə layiq qiymətləndirilməmişdir. Bu ideallar heç də yuxu gətirən boş sözlər deyildir. Tam tərsinə, müasir intellektuallar onlara etinasızlıqla və skeptik, hətta bəzən nifrətlə yanaşırlar. Mən bu kitabda belə bir fikri dəstəkləyirəm ki, əgər lazımi şəkildə dərk edilərsə Maarifçilik idealları həyəcan verici, ruhlandırıcı və nəcibdir – onlar uğrunda yaşamağa dəyər.

## FƏSİL 1

# ANLAMAQ CƏSARƏTİ

Maarifçilik nədir? İmmanuel Kant 1784-cü ildə öz essesinə bu başlığı atmışdı. Kant üçün Maarifçilik "insanın öz günahı üzündən içində olduğu həddi-büluğa çatmama vəziyyətindən çıxması", onun dini və ya siyasi avtoritetlərin "qayda və formullarına tabe olmama", "tənbəllik və qorxaqlıqdan" qaçışıdır[1]. O, Maarifçiliyin devizi olaraq bu cümləni elan etmişdir: "Öz ağlından istifadə etmək cəsarətin olsun!". Onun əsas prinsipi olaraq isə fikir azadlığını və aşağıdakı sözləri qeyd edir: "Heç bir dövr bir sonrakı dövrü öz səhvlərindən uzaqlaşmağı, öz biliklərini genişləndirməyi və ümumiyyətlə maarifçilikdə irəliləməyi imkansız edən bir vəziyyətə qoya bilməz. Bu, ilkin təyinatı tərəqqidən ibarət olan insan təbiətinə qarşı cinayət olardı".[2]

Bənzər ideyanı XXI əsrdə fizik David Döyç də öz "Sonsuzluğun başlanğıcı" (The Beginning of Infinity) kitabında Maarifçiliyin müdafiəsi üçün yazmışdır. Döyç təsdiq edir ki, əgər biz öz ağlımızdan istifadə etmək cəsarətində olsaq, bütün elm, siyasət və əxlaq sahələrində tərəqqiyə nail ola bilərik:

> "Optimizm (mənim anlamımda) – bütün uğursuzluqların səbəbinin bilik yoxsulluğu olduğu haqqında nəzəriyyədir. Problemlərdən qaçış yoxdur, çünki bizim biliklərimiz daim tam olmaqdan çox-çox uzaq olacaqdır. Bəzi problemlər çətindir, lakin onları heç kəsin həll edə bilməyəcəyi düşüncəsi də səhvdir. Problemlər həll oluna biləndir və hər bir konkret şər iş – həlli mümkün olan problemdir. Optimist mədəniyyət açıqdır, onu yeniliklər qorxutmur, əsasında isə

tənqid ənənələri durur. Onun institutları təkmilləşməyə davam edir, əldə etdiyi biliklərdən ən dəyərlisi isə səhvləri necə aşkar etmək və aradan qaldırmaq bilgisidir”.[3]

Maarifçilik nədir?[4] Bu suala rəsmi bir cavab yoxdur, çünki Kantın essesində bəhs edilən epoxa Olimpiadaların təntənəli açılışı və qapanışı kimi dəqiq çərçivəyə malik deyil, onun postulatları hər hansı andda və ya inanc simvolunda yer almamışdır. Ənənəvi olaraq Maarifçilik epoxası XVII əsrin son üçdə ikisi sayılır, baxmayaraq ki, o epoxa məntiqi olaraq XVII əsrin rasionalizm epoxasından və elmdə inqilabdan başlamış və XIX əsrin birinci yarısında klassik liberalizmin çiçəkləndiyi dövrə qədər gəlmişdir. Bütün hamının inandığı həqiqətlərin elm və coğrafi kəşflər tərəfindən şübhə altına alındığı, dini müharibələrin yaddaşlara yenicə həkk olunduğu, insanların və ideyaların dövlət sərhədlərini asanlıqla aşa bildiyi bir dövrdə, Maarifçiliyin mütəfəkkirləri insan təbiətinin yeni bir anlamını axtarırdılar. Bu epoxa üçün çox vaxt biri-birinin əksi olan ideyaların heyrətamiz zənginliyi xarakterik idi, amma hamının bunlar bu mövzular ətrafında birləşirdi: zəka, elm, humanizm və tərəqqi.

Hər zaman birinci yerdə zəka (dərrakə) dayanırdı. Rasional düşüncə şübhəsizdir. Siz bizim nə üçün yaşadığımız (və ya hər hansı başqa sual) haqda mülahizə irəli sürdüyünüz anda, bu cavabın nədən ibarət olacağından asılı olmayaraq, həm də onun ağlabatan və ya əsaslanmış və ya həqiqət olduğunu, buna görə də digər insanların ona inanmalı olduğunu iddia edirsinizsə, avtomatik olaraq rasionallıq tələblərinə tabe olmağa razılıq verirsiniz, sizin baxışlarınızın obyektiv standartlara uyğun qiymətləndirilə biləcəyini qəbul edirsiniz.[5] Maarifçilik mütəfəkkirlərinin hamısını birləşdirən bir məqam vardısa, o da belə bir inam idi: kainatı anlamaq üçün inanc, ehkamlar, avtoritet, xarizma, mistisizm, peyğəmbərlik, intuisiya və ya müqəddəs mətnlərin yozumu kimi doğru yoldan sapma mənbələrinə müraciət etmək yerinə, reallıq meyarlarını aktiv tətbiq etməmiz lazımdır.

Maarifçilik mütəfəkkirlərinin çoxunu məhz dərrakə insanları işləri ilə maraqlanan antropomorf Tanrıya inamdan üz döndərməyə məcbur etdi.[6] Onlar rasional düşüncələrlə aşkar etdilər ki, möcüzələrin mövcud olması barədə etibarlı sübutlar yoxdur, müqəddəs kitabların müəlliflərinə insanlara xas olan heç nə yad deyil, təbiət hadisələri insanların iradəsinə rəğmən baş verir, müxtəlif mədəniyyətlərdə biri-birinin inkar edən, eyni dərəcədə ehtimalla təxəyyül

məhsulu olan fərqli tanrılara inanırlar. (Monteske yazırdı: "Əgər üçbucaqların tanrısı olsaydı, onlar onun üç künclü olduğunu iddia edərdilər".) Bununla belə Maarifçilik mütəfəkkirlərinin heç də hamısı ateist deyildilər. Bəziləri deist (teistlərə əks) idilər. Onlar hesab edirdilər ki, Tanrı Kainat mexanizmini işə salmış və sonra onu təbiət qanunlarına müvafiq olaraq inkişaf etməsinə izin verərək kənara çəkilmişdir. Digərləri panteist idilər, onlar üçün Tanrı təbiət qanunlarının sinonimi idi. Amma onlardan kimsə qanunverici, möcüzələr yaradan Bibliya əfsanələrindəki Tanrı-ataya inanmırdı.

Bir çox müasir yazıçılar Maarifçilik epoxasına xas olan dərrakəyə inamı insanı mütləq rasional varlıq hesab etmək kimi bir uyğunsuz fikirlə qarışdırırlar. Bunun tarixi reallıqla heç bir əlaqəsi yoxdur. Kant, Spinoza, Tomas Hobbs, Devid Yum və Adam Smit düşüncəli psixoloqlar idilər və bizim ehtiras və qorxularımızın irrasionallığını dərk edirdilər. Onlar təkid edirdilər ki, yalnız öz ağılsızlıqlarımızın bütün adi mənbələrini açıq nümayiş etdirərək biz ona qalib gəlməyə ümid edə bilərik. Dərrakənin israrlı tətbiqi məhz ona görə lazımdır ki, adət etdiyimiz düşüncə modelləri heç də rasional deyil.

Bu bizi Maarifçiliyin ikinci idealına – elmə, dünyanı dərk etmək üçün dərrakəni itiləmək üsuluna götürür. Elmdə inqilab elə bir çevrilişə gətirib çıxardı ki, bu gün onun miqyasını dərk etmək çox çətindir. Çünki onun nailiyyətləri indi çoxumuz üçün adi gündəlik məşğuliyyətə çevrilmişdir.

Tarixçi Devid Button 1600-cü illərdə, elmi inqilabın astanasında, təhsilli ingilisin tipik təsəvvürlərini yada salır:

O inanır ki, cadugərlər gəmiləri dənizdə batıran fırtına törədə bilərlər… O, qulyabanıya inanır, halbuki onlar İngiltərədə yoxdur, axırıncı dəfə Belçikada görüblər… O, şübhə etmir ki, Sirseya həqiqətən də Odisseyin yoldaşlarını donuza çevirmişdir. Siçanların özbaşına saman topasında yarandığına əmindir. O, müasir maqlara inanır… O kərgədanın buynuzunu görüb, amma özünü görməyib.

> O inanır ki, meyit qatilinin yanında qanamağa başlayacaq. O, tiyə mazının mövcudluğuna və həmin mazı yaranı kəsən tiyəyə sürtsən yaranın sağalacağına inanır. O inanır ki, bitkinin forma, rəng və teksturası onun dərman xassələrini müəyyən edir və Tanrı təbiəti məxsusən belə yaratmışdır ki, insanlar onu izah edə bilsinlər. O inanır ki, qiymətsiz metalları qızıla çevirmək olar, amma bunu bilən adamın mövcudluğuna şübhə edir. O inanır ki, təbiət boşluğu sevmir. O inanır ki, göy qurşağı – Tanrının işarəsidir, kometalar isə bədbəxtlik gətirir. O gerçəkləşən röyalara inanır, sadəcə onu düzgün